**Nəriman BÖYÜKKİŞİ**
**Azərbaycan Universiteti, dosent**
nariman.boyukkishi@au.edu.az

**Aytən HƏSƏNLİ**
**Azərbaycan Universiteti, magistrant**
hesenovaayten0306@gmail.com

# AZƏRBAYCANDA TURİZM BIZNESİNİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

Turizm biznesi insanların istirahət, müalicə, iş və digər məqsədlərlə müvəqqəti olaraq yaşadıqları yerdən başqa əraziyə səyahət etməsi ilə bağlı xidmətlərin göstərilməsini əhatə edir. Bu biznes sahəsi turistlərə nəqliyyat, yerləşdirmə, qidalanma, əyləncə və digər xidmətlərin təşkilini təmin edir.Onun inkişafına bir sıra iqtisadi, sosial-mədəni, təbii-coğrafi, siyasi-hüquqi, texnoloji və s. amillər təsir göstərir. Bundan əlavə turizm biznesinin inkişafı infrastruktur, kadr hazırlığı, keyfiyyət, rəqabət və təhlükəsizliklə bağlı məsələlərin də həllini tələb edir.

Təqdim olunan elmi məqalədə bütövlükdə turizmin, o cümlədən turizmin inkişafının müasir problemləri araşdırılmış, onların həllinə dair müəyyən təkliflər və tövsiyələr verilmişdir.

**Açar sözlər:** turizm, potensial, xidmət, infrastruktur, destinasiya, keyfiyyət, gəlir.

**UOT:** 336
**JEL:** E58, F31, F38, G18, E42
**DOI:** https://doi.org/ 10.54414/EQFA1377

**Giriş**

Azərbaycan turizm sektoru son illərdə dinamik inkişaf yolu keçmişdir. Bakının biznes mərkəzi kimi formalaşması, Qəbələ və Şahdağda qış turizminin populyarlaşması, Şəki, Quba və Lənkəranda ekoturizmin genişlənməsi sahənin cari vəziyyətini müəyyən edir. Müasir çağırışlar sektorun inkişafında yeni reallıqlar yaradır. İqlim dəyişikliyi mövsümi turizm dinamikasına təsir göstərir, xüsusilə dağ-xizək kurortlarında qar mövsümünün qısalması narahatlıq doğurur. Rəqəmsal transformasiya prosesi sürətlənir, lakin kiçik və orta turizm müəssisələrinin bu sahədə geri qalması rəqabətqabiliyyətliliyi azaldır. İxtisaslı kadr çatışmazlığı, xüsusilə regionlarda yüksək xidmət standartlarının tətbiqini çətinləşdirir. Qlobal iqtisadi qeyri-sabitlik və geosiyasi gərginliklər turist axınına mənfi təsir göstərir.

İnkişaf perspektivləri baxımından, işğaldan azad edilmiş ərazilərdə turizm infrastrukturunun yaradılması, sağlamlıq və müalicəvi turizmin genişləndirilməsi, "ağıllı turizm" konsepsiyasının tətbiqi və davamlı turizm prinsiplərinin mənimsənilməsi prioritet istiqamətlərdir. Ümumiyyətlə turizmin inkişafı perspektivlərinə aşağıdakı istiqamətlərdən yanaşmaq olar:

1. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl turizm" konsepsiyasının tətbiqi. Qarabağ və Şərqi Zəngəzurda sıfırdan yaradılan turizm infrastrukturu ekoloji standartlara uyğun şəkildə qurularaq davamlı turizm nümunələri yaradılır.
2. Qastroturizmin inkişafı.Azərbaycan mətbəxinin zənginliyi və regional müxtəlifliyi əsasında kulinariya marşrutlarının təşkili, yerli şərab istehsalı mərkəzlərinə turların genişləndirilməsi yeni turist seqmentlərini cəlb edə bilər.
3. Mədəni irs turizminin müasirləşdirilməsi. Burada əsasən muğam, tar ifaçılığı, xalçaçılıq kimi UNESCO tərəfindən qorunan qeyri-maddi mədəni irs nümunələrinin interaktiv

təqdimatı və təcrübə turizminin inkişafını nəzərdə tutulur.

4. Səhiyyə turizminin yeni istiqamətləri. Ənənəvi müalicəvi turizmlə yanaşı, tibbi turizm, wellbeing və holistik sağlamlıq xidmətlərinin inkişafı xarici turist cəlbi potensialını artırır.

5. Rəqəmsal nomadlar üçün infrastruktur - uzaqdan işləyən peşəkarlar üçün *"işlə və səyahət et"* konsepsiyası çərçivəsində coworking məkanları, uzunmüddətli yaşayış imkanları və yüksək sürətli internet təminatına xidmət edir.

6. İnklüziv turizm həllərinin genişləndirilməsi. Xüsusi ehtiyacları olan şəxslər üçün turizm obyektlərinin və marşrutların uyğunlaşdırılması sosial məsuliyyət və bazarın genişləndirilməsi baxımından əhəmiyyətlidir.

7. Süni intellekt və virtual reallıq texnologiyalarının tətbiqi. Turizm təcrübəsini zənginləşdirən interaktiv tətbiqlər, fərdiləşdirilmiş səyahət planlaşdırıcıları və virtual tur imkanları rəqabət üstünlüyü yarada bilər.

Regional əməkdaşlığın gücləndirilməsi və "Böyük İpək Yolu" marşrutunda aktiv iştirak ölkənin turizm potensialının reallaşdırılmasına töhfə verəcəyi güman edilir. Azərbaycan turizm sektoru dövlət dəstəyi və özəl investisiyalar sayəsində inkişaf etməkdə davam edir və ölkə iqtisadiyyatının şaxələndirilməsində mühüm rol oynayır. Bu da öz növbəsində turizm biznesinin inkişafına real zəmin yaradır.

Turizm biznesinin inkişafı çoxamilli və kompleks məsələdir. Beləki, onun təmin edilməsi baxımından ölkədə və ya regionda əhalinin gəlir səviyyəsi və alıcılıq qabiliyyəti, infrastrukturun inkişaf səviyyəsi, investisiya mühiti, yerli əhalinin qonaqpərvərliyi, milli adət-ənənələr, təbii landşaft,ölkədəki siyasi sabitlik, viza rejimi və sərhəd prosedurları, dövlətin turizm siyasəti, kommunikasiya imkanları, ümumi təhlükəsizlik səviyyəsi kimi amillər araşdırılmalı, onların təsir istiqamətləri və dərəcələri qiymətləndirilməlidir. Turizm biznesinin uğurlu inkişafı üçün bu amillərin hamısının nəzərə alınması və sistemli şəkildə idarə edilməsi vacibdir. Həmçinin, turizm sektorunun davamlı inkişafı üçün ətraf mühitin qorunması, yerli icmaların maraqlarının nəzərə alınması və mədəni irsin mühafizəsi kimi məsələlər də diqqət mərkəzində olmalıdır.

Müasir dövrdə turizm sektoru qlobal iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biridir. Azərbaycan Respublikası zəngin təbii sərvətləri, qədim tarixi-mədəni irsi və müasir infrastrukturu ilə turizm sahəsində böyük potensiala malikdir. Son illər ərzində ölkədə turizm sektorunun inkişafı istiqamətində mühüm addımlar atılmış, normativ-hüquqi baza təkmilləşdirilmiş və infrastruktur layihələri həyata keçirilmişdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də turizm sektoru prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir.

2024-cü ilin əvvəlinə olan məlumata görə, ölkədə 700-dən çox mehmanxana və mehmanxana tipli müəssisə, 3000-dən artıq turizm şirkəti, 6 beynəlxalq hava limanı, müasir avtomobil yolları şəbəkəsi, 2 dağ-xizək kurortu və çoxsaylı müalicə-sağlamlıq mərkəzləri fəaliyyət göstərir. Belə müxtəlif təyinatlı obyektlərin olması turizm biznesinin inkişafı üçün əsaslı zəmin yaradır. Onları bağlı olduğu turizm növlərinə görə səciyyələndirmək məqsədəuyğun olar. Beləliklə, Xəzər dənizi sahillərində yerləşən Nabran, Yalama, Şıx çimərliyi kimi istirahət məkanları, Quba-Xaçmaz bölgəsindəki istirahət mərkəzləri çimərlik(dəniz) turizminin əsas destinasiyalarıdır.Onlar Azərbaycanın əsas yay turizm mərkəzlərindən hesab olunur.Bu çimərliklərdə əsasən yay mövsümündə (iyun-sentyabr aylarında) turizm fəaliyyəti aktiv olur və turistlər dənizdə çimmək, günəş vannaları qəbul etmək, su idmanı növləri ilə məşğul olmaq, sahil boyunca gəzinti, istirahət və əyləncə imkanlarından istifadə etmək kimi fəaliyyətlərlə məşğul olurlar. Bu çimərliklər həm yerli, həm də xarici turistlər üçün cəlbedici məkanlardır. Araşdırmalara görə, ölkəyə gələn turistlərin 45%-i məhz bu məqsədlə səfər edir [1,s.67].

Naftalan nefti, Duzdağ mağarası, İstisu mineral bulaqları ölkəmizdə müalicə-sağlamlıq turizminin əsas resurslarıdır. Tədqiqatlarına əsasən, son beş ildə bu sahədə 30 faizə qədər artım müşahidə olunmuşdur [2, s.139].

Nəzərə almaq lazımdır ki, respublikamızın digər rayonlarında əhalinin kor-koranə istifadə etdiyi, elmi cəhətdən tam araşdırılmamış sular vardır. Onların tərkibinin və faydalı xüsusiyyətlərinin öyrənilərək turizm biznesi dövriyyəsinə cəlb olunması vacibdir. Şahdağ Milli

Parkı, Qobustan qoruğu, Hirkan Milli Parkı kimi ərazilər ekoturizmin mərkəzləridir. Hesablamalara görə ekoturizm ölkə turizm dövriyyəsinin 15%-ni təşkil edir [3, s.94].

UNESCO-nun dünya irs siyahisina daxil edilmiş İçərişəhər, Şəki Xan Sarayı, Qobustan qayaüstü rəsmləri turistləri cəlb edən əsas destinasiyalardandır. Xarici turistlərin 60%-i məhz onlarla tanış olmaq məqsədlə ölkəmizə səfər edirlər [4, s.83]. Ona görə də onların və digər bu qəbildən olan destinasiyaların tanıdılması istiqamətində işlər intensivləşdirilməlidir.

Şahdağ və Tufandağ kimi müasir qış-idman kompleksləri qış mövsümündə 100 mindən çox turisti qəbul edir. Bundan əlavə, qeyd edilə bilər ki, tədqiqatlara görə işgüzar məqsədlə gələn turistlər ümumi turist axınının 25%-ni təşkil etdiyi halda, xarici turistlərin 80%-i Azərbaycan mətbəxinin özünəməxsusluğunu və zənginliyini kəşf etmək məqsədilə ölkəmizə səfər edirlər [6, s.68].

Turizm biznesinin inkişafında Bibiheybət məscidi, Atəşgah məbədi, Müqəddəs Məryəm kilsəsi kimi dini-tarixi abidələr əsas dini turizm məkanları kimi seçilirlər.

**Cədvəl 1.**

**Azərbaycanda turizm biznesinin inkişaf göstəriciləri**

| Illər | Gəlir, mln. manat | Turist sayı, min nəfər | Xərclər, mln.manat | Rentabellik,% |
|---|---|---|---|---|
| **2018** | 2,830 | 2850 | 1,890 | 33,2 |
| **2019** | 3,170 | 3170 | 2,100 | 33,8 |
| **2020** | 1,110 | 795,0 | 890,0 | 19,8 |
| **2021** | 1,890 | 1430 | 1,320 | 30,2 |
| **2022** | 2,670 | 1985 | 1,780 | 33,3 |
| **2023** | 3,250 | 2320 | 2,150 | 33,8 |

**Mənbə:** www.az.stat.gov.az

Cədvəldən göründüyü kimi, pandemiyadan əvvəl (2018-2019) turist sayı və gəlirlər sabit artım göstərirdi, o cümlədən 2019-cu ildə pik həddə çataraq 3.17 milyon turist qəbul edilmişdi. Bunun əksinə olaraq, pandemiya dövründə kəskin azalma müşahidə olundu. Beləki, turist sayı 75% azalaraq 795 min nəfərə düşdü ki, bu da öz növbəsində gəlirlərin təxminən 65% azalmasına səbəb oldu. Bundan sonrakı dövrü mahiyyət etibarilə bərpa dövrü adlandırmaq olar. Həmin dövrdə (2021-2023) tədricən bərpa prosesi başladı. Qeyd oluna bilər ki, 2023-cü ildə gəlirlər pandemiyadan əvvəlki səviyyəni ötsə də turistlərin sayı 2019-cu il səviyyəsinə çatmadı. Bununla belə 2023-cü ildə ümumi gəlir: 3,250 milyon manat, turistlərin sayı 2,32 milyon nəfər, əməliyyat xərcləri 2,150 milyon manat təşkil etmişdir ki, bu da orta rentabellik səviyyəsinin 33.8%-ə bərabər olması ilə nəticələnmişdir. Demək olar ki, sektorun inkişaf dinamikası müsbətdir və 2024-cü ildə də artımın davam etməsi müşahidə olunmuşdur.Lakin bunlar Azərbaycanın turizm potensialından dolğun istifadə barədə fikir yürütməyə əsas vermir. Ona görə də xüsusi proqram və layihələrdə nəzərdə tutulan məqsəd və hədəflərə doğru intensiv addımlar atılmalıdır.

Turizm sektorunun inkişaf perspektivləri baximinda strateji hədəflər kimi turizm infrastrukturunun təkmilləşdirilməsi, regional turizmin inkişafı, xidmət keyfiyyətinin yüksəldilməsi, yeni turizm məhsullarının yaradılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və turizm təhsilinin inkişafı nəzərdə tutulur. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə turizm potensiali baximindan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tarixi-mədəni abidələrin bərpası, yeni turizm infrastrukturunun yaradılması, Şuşa şəhərinin mədəniyyət paytaxtı kimi inkişafı və ekoturizm marşrutlarının yaradılması planlaşdırılır.

Turizm biznesinin inkişafında rəqəmsal transformasiya baxımından smart turizm həllərinin tətbiqi, virtual tur təcrübələrinin yaradılması və big data analitikasının tətbiqi də əhəmiyyət kəsb edən tədbirlər sırasındadır.

Göstərilən qəbildən olan tədbirlərin reallaşdırılması nəticələrinin yüksəlməsi turizm biznesinin inkişafına mane olan problemlərin dəqiq müəyyən edilməsi ilə sıx bağlıdır. Həmin problemləri ardıcıllıqla şərh eetməli olsaq, nəzərə alınmalıdır ki, mövsümilik problemi hazırda sektorun ən ciddi problemlərindən biridir. Turistlərin əksəriyyəti yay aylarında (iyun-avqust) və qismən də qış mövsümündə (dağ-xizək turizmi üçün) ölkəyə səfər edir. Bu vəziyyət turizm müəssisələrinin qeyri-mövsüm dövründə maliyyə çətinlikləri ilə üzləşməsi, iş yerlərinin qeyri-sabitliyi, mövsümi işçi axını və infrastrukturun il boyu səmərəli istifadə edilməməsi, eləcə də qiymətlərin mövsümi artımı və azalması səbəbindən sabit gəlir proqnozlaşdırılmasının çətinliyi kimi çətinliklər yaradır.

Regional turizm infrastrukturunun qeyri-bərabər inkişafi problemi özünü turizm xidmətlərinin əsasən Bakı və bir neçə məşhur turizm mərkəzində cəmləşməsi, regional turizm potensialının tam istifadə edilməməsi, yerli infrastrukturun (yollar, kommunal xidmətlər, internet) bəzi bölgələrdə zəif inkişafı, kiçik və orta turizm müəssisələrinin regionlarda inkişafının məhdudluğu və regional turizm obyektlərinin beynəlxalq standartlara uyğunsuzluğu istiqamətlərində özünü büruzə verir.

İxtisaslı kadr çatışmazlığı xüsusilə regional səviyyədə daha qabarıqdır. Bu, özünü daha çox xarici dil bilən personal çatışmazlığı, turizm sahəsində peşəkar təhsilin keyfiyyət problemləri,təcrübəli menecerlərin azlığı, xidmət sektorunda peşəkar etika və davranış standartlarının tam formalaşmaması və kadrların əmək haqqlarının aşağı olması səbəbindən yüksək kadr axını müşahidə olunur.

Bundan əlavə marketinq və brendinq strategiyalarinin təkmilləşdirilməsinə ciddi ehtiyacın olduğunu düşünürük. Hesab edirik ki, beynəlxalq bazarlarda sistemli marketinq fəaliyyətinin zəifliyi, rəqəmsal marketinq alətlərindən məhdud istifadə, regional turizm brendlərinin zəif təşviqi, hədəf bazarların düzgün seçilməməsi, həmçinin sosial media və onlayn platformalarda aktiv təmsilçiliyin zəif olması daha çox diqqət çəkir.

Turizm məhsullarının diversifikasiyası sahəsində yeni və innovativ turizm məhsullarının azlığı, mövcud turizm məhsullarının müasir tələblərə tam uyğunlaşdırılmaması, interaktiv turizm təcrübələrinin məhdudluğu, yerli mədəniyyət və adət-ənənələrin turizm məhsuluna çevrilməsində çətinliklər mövcuddur.

Hazırda Azıərbaycanda turizm biznesinin inkişafına mənfi təsir göstərən amillər arasında demək olar ki, qiymətlərin yüksək səviyyəsi diqqəti cəlb edir. "Qiymət-keyfiyyət" nisbətinin balanslaşdırılması sahəsində xidmət keyfiyyətinin qiymətə adekvat olmaması, qiymət siyasətində vahid strategiyanın olmaması,yerli və xarici turistlər üçün qiymət fərqlərinin mövcudluğu, həmçinin rəqib ölkələrlə müqayisədə bəzi xidmətlərin bahalılığı halları daim narahatlıq doğurur.

İnformasiya təminatı və rəqəmsallaşma problemləri daha çoxvahid turizm informasiya bazasının olmaması, onlayn bronlaşdırma sistemlərinin qeyri-təkmilliyi, turistlər üçün rəqəmsal bələdçi xidmətlərinin məhdudluğu, turizm statistikasının tam dolğun olmaması və virtual turizm imkanlarından məhdud istifadə ilə bağlıdır.

Göstərilən problemlərin həlli üçün kompleks yanaşma və bütün maraqlı tərəflərin (dövlət qurumları, özəl sektor, yerli icmalar, beynəlxalq təşkilatlar) koordinasiyalı fəaliyyəti tələb olunur. Problemlərin aradan qaldırılması üçün həm qısamüddətli, həm də uzunmüddətli strategiyalar hazırlanmalı və tətbiq edilməlidir. Bunlara parallel olaraq, alternativ turizm növlərinin inkişafı, qış turizmi infrastrukturunun genişləndirilməsi, ilboyu fəaliyyət göstərən turizm məhsullarının yaradılması, beynəlxalq təcrübə mübadiləsi, xidmətlərin keyfiyyəti üzrə beynəlxalq standartların tətbiqi, müntəzəm monitorinq və qiymətləndirmənin aparılması məsələləri də diqqət mərkəzində olmalıdır.

Azərbaycanın turizm sektoru böyük inkişaf potensialına malikdir. Son illərdə həyata keçirilən islahatlar və infrastruktur layihələri sektorun inkişafına əhəmiyyətli töhfə vermişdir. İşğaldan azad edilmiş ərazilərin bərpası və yeni turizm məhsullarının yaradılması perspektivdə sektorun daha da inkişafına təkan verəcəkdir. Dövlət tərəfindən həyata keçirilən sistemli tədbirlər, özəl sektorun artan marağı və beynəlxalq əməkdaşlığın genişlənməsi Azərbaycanı regional turizm mərkəzinə çevrilmək hədəfinə doğru irəlilədir. Mövcud problemlərin həlli və inkişaf perspektivlərinin reallaşdırılması üçün bütün

maraqlı tərəflərin koordinasiyalı fəaliyyəti vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Hüseynov İ., Azərbaycanda kurort-rekreasiya ehtiyatları, Bakı, 2019
2. Qasımov M., Azərbaycanda sağlamlıq turizminin inkişaf perspektivləri, Turizm və qonaqpərvərlik tədqiqatları, 2021, s.135-142.
3. Əliyev Ə., Azərbaycanda ekoturizmin müasir vəziyyəti, Azərbaycan Coğrafiya Jurnalı, 2022, s.91-97
4. Məmmədov R., Azərbaycanın mədəni turizm potensialı, Bakı, 2023
5. Həsənov N., Azərbaycanda işgüzar turizmin inkişaf tendensiyaları, İqtisadi Araşdırmalar Jurnalı, 2023, s.54-59
6. Rüstəmov Z., Azərbaycan qastroturizm destinasiyası kimi, Turizm və İnnovasiyalar Jurnalı, 2022, s.63-70
7. Azərbaycan Turizm və Menecment Universiteti, Sektor Hesabatı, 2023
8. İnternet resursları

**Нариман БОЮККИШИ**
Университет Азербайджан, доцент

**Айтен ГАСАНЛИ**
Университет Азербайджан, магистрант

### Современное состояние и перспективы развития туристического бизнеса в Азербайджане

**Резюме**

Туристический бизнес предполагает оказание услуг, связанных с временным выездом граждан из места постоянного проживания в другую местность для отдыха, лечения, работы и других целей. Этот сектор бизнеса предоставляет туристам транспортные, гостиничные, продовольственные, развлекательные и другие услуги. На его развитие оказывает влияние ряд экономических, социально-культурных, природно-географических, политико-правовых, технологических и т. д. факторы влияют. Кроме того, развитие туристического бизнеса требует решения вопросов, связанных с инфраструктурой, подготовкой кадров, качеством, конкуренцией и безопасностью.

В представленной научной статье рассматриваются современные проблемы туризма в целом, в том числе развития туризма, а также даются определенные предложения и рекомендации по их решению.

**Ключевые слова:** туризм, потенциал, услуга, инфраструктура, направление, качество, доход.

**Nariman BOYUKKİSHİ**
Azerbaijan University, associate professor

**Ayten HASANLİ**
Azerbaijan University, master's student

### Current status and development prospects of tourism business in Azerbaijan

**Summary**

Tourism business includes the provision of services related to people temporarily traveling from their place of residence to another area for recreation, treatment, work and other purposes. This business area provides tourists with transportation, accommodation, food, entertainment and other services. Its development is influenced by a number of economic, socio-cultural, natural-geographical, political-legal, technological, etc. factors. In addition, the development of tourism business requires the resolution of issues related to infrastructure, personnel training, quality, competition and security.

The presented scientific article examines the modern problems of tourism as a whole, including tourism development, and provides certain proposals and recommendations for their solution.

**Keywords:** tourism, potential, service, infrastructure, destination, quality, income.